


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 76 (23.718)

28 aprel 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar. Onlar Cəbrayıl rayonunun girişində "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısına gəliblər. Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışını etdikdən sonra yeni hərbi maşınlarla tanış olub və onlardan birini idarə edib. Dövlətimizin başçısı hərbi hissənin idman zalında olub. Sonra Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşüb və çıxış edib. Bildirib ki, Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa olunub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Ağalı kəndinə gəliblər. Məlumat verilib ki, birinci "Ağıllı kənd" pilot layihəsinin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər. Dövlətimizin başçısı xarici şirkət nümayəndələri ilə videoformatda söhbət edib. Sonra dövlətimizin başçısı Zəngilan rayonunun sakinləri ilə görüşüb.

Prezident İlham Əliyev Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin, Zəngilanda Beynəlxalq Hava Limanının, Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoyub. Zəngilan məscidində isə üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşı məscidin divarına hörülüb.

Mincivan qəsəbəsində olarkən Prezident İlham Əliyev bildirib ki, Mincivan dəmir yolu yenidən qurulacaq, vağzal da, həmçinin. Dəmir yolunun yenidən qurulması prosesinə start verilib. Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək.

## Tanınmış həkim, ictimai xadim Hüseyn Niftəliyevin 70 illiyi qeyd olunub





***Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində tanınmış həkim, ictimai xadim Hüseyn Niftəliyevin 70 illik yubileyi qeyd edilib.***

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yubilyara ünvanladığı təbrik məktubunu oxuyub. Sonra yubilyarın həyat və fəaliyyəti haqqında ətraflı məlumat verib. Nazir qeyd edib ki, Hüseyn Niftəliyev 1975-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsini bitirib. 1976-cı ildən Culfa rayon Yaycı Kənd Xəstəxanasına təyinat alıb və həkim-pediatr kimi burada 5 il fəaliyyət göstərib. 1982-ci ilin aprel ayında Nehrəm Kənd Xəstəxanasına baş həkim təyin olunan Hüseyn həkimin işlədiyi 39 il ərzində kənddə uşaq ölümünün səviyyəsi sıfra endirilib. Hepatit A virusunun əlamətləri üzə çıxarkən Hüseyn Niftəliyev kollektivlə birlikdə profilaktik tədbirlər aparmaqla, xəstələri vaxtında stasionara göndərməklə infeksiyanın qarşısının qısa müddətdə alınmasına nail olub. Bu uğuruna görə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı ilə təltif olunub. Son illərin quruculuq əməğanlarından olan, müasir avadanlıqlarla təchiz edilmiş Nehrəm Qəsəbə Sahə Xəstəxanasının nailiyyətlərində, burada təkcə Nehrəmdən yox, muxtar respublikanın bütün bölgələrindən müraciət edən şəxslərin müayinə və müalicələrinin uğurla aparılmasında Hüseyn həkimin özünəməxsus əməyi vardır.

Vurğulanıb ki, Hüseyn həkim Yeni Azərbaycan Partiyasının üzvü kimi 2005-2010-cu və 2015-2020-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi də səmərəli ictimai fəaliyyət göstərib. 2004-cü ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi" fəxri adı, 2007-ci ildə "Tərəqqi" medalı, 2013-cü ildə muxtar respublikanın inkişafındakı əməyinə görə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə buraxılan "Xatirə" qızıl medalı ilə təltif olunub. 2019-cu ildə isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülüb.

Səhiyyə naziri bildirib ki, hazırda tanınmış həkim uşaq əhalisinin sağlamlığı keşiyindədir. O, pandemiya əleyhinə qabaqlayıcı profilaktik tədbirlərin görülməsində, sakinlərə təcili təxirəsalınmaz tibbi yardım göstərilməsində, uşaqların sağlamlığının qorunmasında yorulmaz fəaliyyəti ilə seçilən qabaqcıl səhiyyə işçilərimizdəndir.

Niyazi Novruzov uşaq əhalisinin sağlamlığının qorunmasında qazandığı uğurlara görə Hüseyn Niftəliyevə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanını təqdim edib.

Babək Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Asiman Yusifov, nazirliyin Tibbi Yardımın təşkili şöbəsinin baş məsləhətçisi Məhsəti Allahyarova çıxışlarında qeyd ediblər ki, ömrünün 70-ci baharını yaşayan Hüseyn həkim müqəddəs Hipokrat andına sadiq qalan, muxtar respublikanın zəngin səhiyyə ənənələrini yaşadıb inkişaf etdirən, əhalinin sağlamlığının qorunmasını hər şeydən üstün tutan, insanlara həssas, qayğıkeş münasibət bəsləməsi ilə seçilən tibb işçilərimizdəndir. Hazırda təkcə Babək rayonunda deyil, muxtar respublikada da yetərincə tanınan Hüseyn həkimin ömür salnaməsi mənalı sətirlərlə zəngindir.

Nehrəm Qəsəbə Sahə Xəstəxanasının baş həkimi Hüseyn Niftəliyev göstərilən diqqət, fəaliyyətinə verilən qiymət üçün minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Quruculuq tədbirləri davam etdirilir

Tarixi Qələbə, torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsində Naxçıvanın qeyrət qalası Sədərəyin igid



oğulları Tağı Abdullazadə və Ərtoğrul Nadirli də şəhid olmuşlar. Onlar 1990-cı illərdə torpaqlarımıza göz dikmiş yağı düşmənə tutarlı cavab verərək şəhidlik zirvəsinə yüksələn igid oğullarımız ilə birgə Sədərək rayonundakı Şəhidlər xiyabanında uyuyur.

Muxtar respublikamızda şəhid ailələri dövlətimiz tərəfindən hər cür qayğı ilə əhatə edilir, igid Vətən oğullarının məzarları ailələrinin istəklərinə uyğun qaydada götürülür.

Yaxın günlərdə Sədərək rayonundakı Şəhidlər xiyabanında aparılan yenidənqurma, təmir-bərpa işləri də dövlət qayğısının növbəti təzahürüdür. Aparılan təmir işləri zamanı 90-cı illərdə şəhidlik zirvəsinə yüksələn igid Vətən oğullarının məzarları da yenidən bərpa edilir, qara mərmərlə üzlənir, məzarlığın ərazisinə döşəmə daşlar düzülür, ətrafa gülkarlıq salınır.

**Gülnarə HÜSEYNOVA**

## Nağdsız hesablaşmaların həcminin artması günün tələbidir

***Müasir şəraitdə aparılan iqtisadi islahatların sürətlənməsi və şəffaflığın təmin edilməsi üçün muxtar respublikada əsas diqqətdə saxlanılan məsələlərdən biri də nağdsız hesablaşmaların həcminin artırılmasıdır. Bunun üçün nağdsız ödəniş sistemlərini təkmilləşdirmək, elektron xidmətlərin səmərəliliyini artırmaq və müasir bank xidmətlərinin göstərilməsini təmin etmək istiqamətində ciddi işlər görülür.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" bu sahədə fəaliyyətin təmin olunmasına şərait yaratmışdır. Hazırda muxtar respublikada elektron ödəniş xidmətləri kifayət qədər geniş yayılmış, nağd ödənişlərin həcmində azalmalar müşahidə olunmuşdur. Belə hesablaşmaları təkmilləşdirmək, vətəndaşların elektron ödəniş sistemlərindən istifadəsini təmin etmək, nağd üsulla olan əməliyyatların həcmini azaltmaq, ödəniş kartlarından istifadə imkanlarını sürətləndirmək üçün POS-terminallar və bankomatların fəaliyyətinin genişləndirilməsi işləri diqqət mərkəzində saxlanılır.

Nağdsız xidmətlərin real görünüşünü ortaya qoyan əsas amillər bank hesablarının açılması, bankomatlar və POS-terminalların quraşdırılması, ödəniş kartlarının paylanması kimi göstəricilər hesab olunur. Ödəniş kartları hər hansı ödənişlərin aparılmasında müasir texniki imkanlar kimi ənənəvi üsullardan daha səmərəli hesab edilir. Günümüzdə hesablaşmaların daha asan yollarını bizim üçün təmin edən bank kartları xeyli geniş imkanlar yaradır. Muxtar respublikada bankların həyata keçirdiyi müasir xidmətlərdən biri kimi ödəmə kartları əsas diqqət mərkəzindədir. Statistik məlumatlar göstərir ki, artıq onların sayı 270 minə yaxındır. Bu da 10 il bundan əvvəlki dövrlə müqayisədə 2,4 dəfə artım deməkdir. Buna bağlı olaraq bankların digər mühüm xidmətləri sayılan POS-terminallar və bankomatların sayında da ciddi artımlar olmuşdur. Elektron ödəniş aparılmasında hər iki xidmətin əvəzsiz rolu var. 2021-ci ilin əvvəlinə muxtar respublikada olan POS-terminalların sayı 1410-a bərabər olmuşdur. Bu isə ötən illə müqayisədə 132 ədəd çox deməkdir. 2011-ci ildən keçən on il ərzində POS-terminalların sayı 30 dəfə artmışdır. 2020-ci ildə isə POS-terminallar və internet vasitəsilə aparılan elektron ödənişlərin ümumi həcmi 90 milyon manata yaxın olmuşdur.

Muxtar respublikada nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə həm də aparılan stimullaşdırıcı tədbirlər xüsusi əhəmiyyət daşıyır. Bunun üçün hər il nağdsız ödəniş mədəniyyətinin yüksəldilməsi istiqamətində Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Dövlət Vergi Xidməti müştərək həvəsləndirmə işləri aparır, hədiyyə-kampaniyalar təşkil edilir. 2020-ci ildə keçirilən bu tədbirlərdə yüzlərlə kart sahibi toplamda 50 min manat dəyərində hədiyyələrlə mükafatlandırılmışdır.

Nağdsız ödənişlərin diqqətdə saxlanılması və plastik kartlardan istifadə imkanlarının genişləndirilməsi xeyli faydaları ilə xarakterizə olunur. Belə ki, qeyri-formal məşğulluq və vergilərdən yayınma halları aradan qalxır. Kartlara aid məxfi kodlar vasitəsilə pul vəsaitləri təhlükəsiz şəraitdə saxlanılır və istənilən yerə rahat, qısa zaman ərzində bu vəsaitləri göndərmək mümkündür. Onlayn xidmətlər vasitəsilə ölkədaxili və xaricdən sifariş ediləcək malların dəyərini günün istənilən vaxtında banklara getmədən ödəmək olar. Belə hesablaşmalar həm də ailə büdcəsinin düzgün planlaşdırılmasına şərait yaradır. Məsələn, ay ərzində daxil olan gəlirlər və ödənilmiş xərclər barəsində hesabatlar alınır, bu gəlir və xərclər hesab üzrə çıxarışlar əsasında təhlil edilir.

Günümüzdə fəaliyyətlərin distant olaraq təşkil edilməsi hər keçən gün daha da aktuallıq qazanmaqdadır. Nağdsız ödənişlərin həcmi də müasir dövrün çağırışı kimi getdikcə daha da artacaqdır.

**Eltun İBRAHİMOV**
*iqtisad üzrə fəlsəfə doktoru*



# İxrac iqtisadiyyatı: Naxçıvan bunu necə bacardı

*Ölkəmizin ötən ilin mart ayından daxil olduğu pandemiya böhranından çıxışının ləngidiyini əvvəlki yazılarda qeyd etmişdik. İyunun 1-dək uzadılan karantin rejimi hələ də bir çox sahələri buxovda saxlayır. Belə ki, ilin geridə qalan ilk 3 ayı ərzində tənəzzül dayanmayıb. ÜDM-in 1,3 faiz azalması fonunda əsas kapitala yönələn vəsaitlər 19,4 faiz enərək, qeyri-neft sektoru üzrə 32,2 faiz, sənayedə isə 1,7 faiz təşkil edib.*

Doğrudur, qeyri-neft sektorunda məhsul istehsalı 2,1, onun sənaye hissəsində isə 11,9 faiz artıb, amma kapital və kredit qoyuluşunun azalması fonunda bu göstəricilər üzrə də əks dinamika müşahidə oluna bilər.

Amma Naxçıvanda yenə hər şey qaydasındadır. Ölkəmizin ümumi iqtisadi mənzərəsi fonunda həmişə ayrıca diqqət yetirdiyim muxtar respublikada iqtisadiyyat 2020-ci ildə pandemiya yağışında islanmaqdan xilas olduğu kimi, cari ilin ilk 3 ayından da üzüağ çıxıb. Yəni Naxçıvan Muxtar Respublikasında tənəzzül olmayıb və indi də yoxdur.

2021-ci ilin ilk rübü ərzində müsbət dinamika nümayiş olunub. 557 milyon 426 min 300 manatlıq ÜDM istehsal olunmaqla, müqayisəli qiymətlərlə 1 il öncəki göstəricidən 0,6 faiz çox nəticə əldə olunub. Adambaşına düşən ÜDM isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,3 faiz artaraq 1207,1 manat təşkil edib.

Ümumiyyətlə, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin ilk rübü ərzində sənaye məhsulu 1 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,2, nəqliyyat sektorunda yük daşınması 0,8 faiz, informasiya və rabitə xidmətləri isə 9,9 faiz artım nümayiş etdirib.

Yeri gəlmişkən, keçən ilin statistikasına əsasən bu bölgəmizdə ÜDM istehsalı 2 milyard 907 milyon 810 min 500 manat təşkil etməklə 1,1 faiz artım nümayiş etdirmişdi ki, sözügedən göstəricinin adambaşına düşən həcmi isə əvvəlki ilə nisbətən 1,8 faiz artaraq 6310,4 manat olmuşdu. Sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1, kənd təsərrüfatı məhsulları istehsalı 4,6, informasiya və rabitə xidmətləri 5,2, xarici ticarət dövriyyəsi isə 2,8 faiz artmışdı. Ümumən, ölkədə isə 4,3 faiz tənəzzül qeydə alınmışdı.

Muxtar respublikada qeydə alınan bütün bu uğurlu dinamikanın səbəbini əvvəlki təhlillərimdə olduğu kimi, yenə məhz özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişlənməsinə ciddi diqqət yetirilməsi, sənaye məhsulları istehsalı sahəsində sahibkarlıq təşəbbüsləri ilə fəaliyyətlərin dəyənləndirilməsi ilə izah edir və bu siyasətin getdikcə daha da yeni keyfiyyətlər üzərinə transfer edilməsi ilə əsaslandırıram. Ona görə də Azərbaycanda qeyri-neft sektorunun inkişafı ən sürətli şəkildə məhz burada təşəkkül tapır. Ümumiyyətlə, Naxçıvanda həyata keçirilən iqtisadi siyasət rəqabətqabiliyyətli, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin təşəkkülü prosesini genişləndirməklə, sənayeləşməni sürətləndirir. Təsadüfi deyil, 2021-ci il muxtar respublikada "İxrac ili" elan olunub ki, bu özü çox mühüm strateji məqsəd daşıyır.

Bəli, Naxçıvanda iqtisadiyyat birmənalı olaraq ixrac üzərində qurulub. Ümumiyyətlə, Naxçıvanda çoxlu çeşiddə ixrac qabiliyyətli məhsullar istehsal edilir ki, 2019-cu ildə 323 milyon 309 min ABŞ dolları dəyərində məhsul ixrac olunmuş, keçən il isə bu rəqəm 428 milyon 520 min dollar təşkil edib. Cari ilin I rübündə isə muxtar respublikanın xarici ticarət dövriyyəsi 79 milyon 733 min 800 dollara bərabər olmaqla, bunun 53 milyon 851 min 900 dollarını ixrac, 25 milyon 881 min 900 dollarını isə idxal təşkil edib və beləliklə də, 27 milyon 970 min dollar dəyərində müsbət saldo yaranıb.

Sözügedən bölgədə müxtəlif tip yerli istehsal sahələri, emal müəssisələrinin yaranması zamanı bunların, əsas etibarilə, daxili sərvətlər və xammal hesabına fəaliyyət göstərərək məhz ixrac qabiliyyətli olmasına üstünlük verilir. Belə ki, yerli istehsalın ixrac imkanlarına sahib olması və bunun genişlənməsi büdcəni daha çox möhkəm və dayanıqlı gəlir mənbələri hesabına təmin etməyə imkan yaradır.

Muxtar respublikada təkcə 2021-ci ilin ilk rübü ərzində dövlət dəstəyi ilə müxtəlif iqtisadi fəaliyyət sahələrində 20 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 41 layihənin gerçəkləşdirilməsi işləri isə davam etdirilib. Bunun özünün vəsait qoyuluşu demək olduğu aydındır. Yeri gəlmişkən, sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2021-ci ilin yanvar-mart aylarında 4 milyon 700 min manat kredit verilib. Ölkə üzrə isə bu sahədə bəlli olduğu kimi, geriləmə var. Bir fakta diqqət yetirim ki, sənayedə istehsalın həcminin artması nəticəsində 2021-ci ilin yanvar-mart aylarında sırf sənaye məhsulları ixracı 41 milyon 613 min 300 dollar təşkil edib.

İqtisadiyyatın ixraca köklənməsi bütün sektorları əhatə edir. Götürək kənd təsərrüfatını... Muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə tədbirlər də getdikcə ixrac hədəfi və prinsipləri üzərində qurulur. Buna kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması və istehsal olunan məhsulların ixrac potensialının artırılması ilə kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nı misal göstərmək olar. Həyata keçirilmiş tədbirlər nəticəsində 2021-ci ilin yanvar-mart aylarında 1 il öncəyə nisbətən 4,2 faiz çox, yəni 31 milyon 270 min 400 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Və yaxud, adi meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il 12 mart tarixdə imzaladığı digər Sərəncamı ilə təsdiq olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nı da qeyd etmək yerinə düşər.

Bütün bunlar əyani olaraq bir daha göstərir ki, iqtisadi fəaliyyət istiqamətləri üzrə Dövlət proqramları ixracyönümlü hədəf üzərində qurulur, təsbit və təsdiq olunur. Söhbət yaxşı düşünülmüş siyasətdən gedir. Ümumiyyətlə, bir çox şərhlərimdə də yazdığım kimi, iqtisadi artımın fasiləsizliyinin təmini üçün ixracın əsas hədəf təşkil etməli olduğu aksiom sayılır. Əks-təqdirdə artımda dinamik inkişaf qeyri-mümkün hesab edilir.

Odur ki, Naxçıvanın real iqtisadi kursu və durumu olduqca xoş təəssürat doğurur. Naxçıvandan ixracın ildən-ilə genişlənməsi, bütövlükdə, Azərbaycan üçün də bir örnəyə çevriləcək və çevrilməlidir də...

Onsuz da Naxçıvan ölkəmizin iqtisadiyyatı üçün də böyük rol oynayır və bundan sonra lap çox oynayacaq. Ermənistanın kapitulyasiyasına dair 10 noyabr 2020-ci il tarixdə imzalanan razılaşmanın 9-cu bəndinə əsasən bölgədəki bütün iqtisadi, nəqliyyat əlaqələri bərpa ediləndən sonra Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qərb rayonları arasında vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkəti üçün təhlükəsizlik mexanizmi təşəkkül tapacaq ki, Zəngəzur dəhlizinin işə düşməsi ilə təkcə Azərbaycan deyil, bütün region və Cənubi Qafqaz bölgəsi iqtisadi inkişaf sarıdan böyük bir təkan əldə edəcək. Naxçıvan Türkiyə, İran, Gürcüstan və Rusiya üçün də vacib məkan olacaq.

*O zaman Naxçıvanın ixrac potensialının bu gün görünməyən üzləri də, necə deyərlər, su səthinə çıxacaq.*

**Pərviz HEYDƏROV**
***Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun Makroiqtisadi Tədqiqatlar Şöbəsinin aparıcı elmi işçisi, iqtisadçı ekspert***
***azvision.az***
***27 aprel 2021-ci il***

# Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd olunub

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunan tədbiri giriş sözü ilə şuranın sədri Anar İbrahimov açaraq bildirib ki, muxtar respublikada aparılan məqsədyönlü islahatların kökündə insan amili, vətəndaşın rahatlığı, səmərəli məşğulluğu, onun üçün yaradılan sağlam və layiqli iş yeri, əmək şəraiti, əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılması və təhlükəsizliyi dayanır. Əməyin təhlükəsizliyi və mühafizəsi Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının, onun tabeliyində olan müvafiq muxtar respublika Birləşmiş Həmkarlar İttifaqı komitələrinin və sahə həmkarlar təşkilatlarının həyata keçirdiyi əsas vəzifələrdən biridir və bu istiqamətdə tədbirlər davam etdirilir.

Vurğulanıb ki, Əmək və sosial-iqtisadi məsələlər üzrə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Həmkarlar İttifaqları Şurası və Sahibkarlar Konfederasiyası arasında bağlanmış Baş Kollektiv Sazişdə və Kollektiv Əmək Müqavilələrində əməyin mühafizəsinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası muxtar respublikada insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edən əməyin mühafizəsinin təşkilinə həmişə həssaslıqla yanaşıb, bundan sonra da xüsusi həssaslıq göstəriləcək. Sonra əlamətdar günlə əlaqədar digər çıxışlar olub.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə 28 Aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü münasibəti ilə Naxçıvan şəhərində maarifləndirici tədbir keçirilib. Tədbirdə muxtar respublika ərazisində fəaliyyət göstərən tikinti, sənaye və istehsal sahələri üzrə 24 müəssisənin 61 nəfər nümayəndəsi iştirak edib. Tədbirdə vurğulanıb ki, təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması, həmçinin işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması istiqamətində tədbirlərin icrası daim diqqət mərkəzində saxlanılır.

Tədbirin davamında iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

*2003-cü ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən 28 aprel "Ümumdünya Əməyin Mühafizəsi Günü" elan edilmişdir. Bu günün təsis olunmasında məqsəd istehsalatda bədbəxt hadisələrin baş verməsinin qarşısının alınmasına, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına ictimai diqqətin artırılmasıdır.*

*28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür*

# Əməyin mühafizəsi insan amilinə verilən dəyərdir

Əməyin mühafizəsi, işçilərin əmək hüquqlarının qorunması, həmçinin təhlükəsiz və sağlam iş yerlərinin yaradılması ölkəmizdə sosial siyasətin əsas istiqamətlərindəndir. Bu sahədə həyata keçirilən tədbirlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndərin ölkəmizə rəhbərliyi dövründə əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktlar qəbul olunmuş, Beynəlxalq Əmək Təşkilatının bir sıra konvensiyaları ratifikasiya edilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır. ***"Azərbaycan dövlətinin ən qiymətli sərvəti onun insanlarıdır"***, – deyən ulu öndərin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ təsbit olunmuşdur. Həmçinin ölkənin bu əsas Qanununda işçilərin əmək və istirahət hüquqlarının əsasları da öz əksini tapmışdır. Bununla yanaşı, əmək münasibətlərini tənzimləyən əsas qanunvericilik aktı 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Əmək Məcəlləsidir. Məcəllədə işəgötürən və işçilərin əmək münasibətləri və əməyin mühafizəsi üzrə hüquqları, vəzifələri və öhdəlikləri öz əksini tapmışdır ki, bu qanunvericilik aktı da ilbəil daha da təkmilləşdirilib. Bu gün ölkəmizdə əmək hüquqlarının təmin olunması diqqətdə saxlanılır, əməyin mühafizəsi sahəsində qanunvericilik aktları daim təkmilləşdirilir və əmək şəraiti yaxşılaşdırılır.

Muxtar respublikamızda da əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Əmək şəraitinin yaxşılaşdırılması ilə yanaşı, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması, iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması əməyin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini şərtləndirir.

Ötən dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması, tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların icrası əməyin mühafizəsi ilə bağlı uğurlu nəticələrin əldə edilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması, həmçinin işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması istiqamətində daha geniş tədbirlərin görülməsi nəzərdə tutulub. Hazırda muxtar respublikada işçilərin həyatı və sağlamlığına təhlükə yarada biləcək hadisələrin qarşısının alınması üçün profilaktik tədbirlər görülür, tikinti aparılan obyektlərdə işçilər üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır, onlar peşələrinə uyğun xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin edilirlər.

Əməyin mühafizəsi istiqamətində nəzarət və maarifləndirmə tədbirləri ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən iş sahələrində əməyin mühafizəsi qaydalarına riayət olunmasına dair maarifləndirici seminarlar davam etdirilir. Belə ki, fevral ayında muxtar respublika ərazisində fəaliyyət göstərən 14 istehsal müəssisəsinin mütəxəssislərinin iştirakı ilə növbəti seminar keçirilib. Seminarda nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri tərəfindən iş prosesində əməyin mühafizəsi qaydalarına riayət edilməsi, işin xarakterinə uyğun fərdi və kollektiv mühafizə vasitələrindən istifadə edilməsi, əməyin mühafizəsi üzrə işçilərin və işəgötürənlərin vəzifələri, həmçinin əməyin mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyətlərlə bağlı söhbətlər aparılıb, slaydlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tövsiyələr verilib.

Ümumilikdə, cari ilin birinci rübündə əməyin mühafizəsinin təşkili ilə bağlı müvafiq baxışlar keçirilib, fərdi mühafizə vasitələrindən istifadə etməyən işçilər iş sahəsindən uzaqlaşdırılıb və ya fərdi mühafizə vasitələri ilə yerində təmin ediliblər.

Əməyin mühafizəsini daha geniş şəkildə təbliğ etmək məqsədilə "Əməyin mühafizəsi" adlı elektron jurnal rübdə bir dəfə olmaqla, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin *sosial.nmr.az* rəsmi internet saytında yerləşdirilir. Əmək münasibətlərinin elektron informasiya sistemi vasitəsilə rəsmiləşdirilməsinə dair seminarlar, həmçinin əməyin mühafizəsi norma və qaydalarına əməl edilməsinə dair işçi heyətlə yerlərdə görüşlərin keçirilməsi də rüb ərzində davam etdirilib. Həmçinin "255" nömrəli qaynar xətt vasitəsilə daxil olan elektron informasiya sisteminin tətbiqinə dair yaranan suallar xidmətin əməkdaşları tərəfindən operativ cavablandırılır.

Əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edir. Əməyin mühafizəsinin təşkili muxtar respublikamızda daim nəzarət edilən vacib sahələrdən biridir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Əfsanəyə dönən ömürlər

## Səndən bizə qısa bir ömürlük xatirə qaldı...



Həmin günü heç vaxt unutmayacağam. 1 oktyabr 2020-ci ili. Kamranın anası Sevda xanım Kükü kəndinə, qayınatasıgilə gəlmişdi. Oğlu sentyabrda könüllü şəkildə orduya yazılmışdı. Getmək ərəfəsində ata və anasına bildirmişdi. 1 oktyabrda eşitdik ki, Kamranı ön cəbhəyə aparıblar. Mən də Sevda xanıma ürək-dirək vermək üçün onlara getdim. Bir çay içmişdik ki, Sevdaya həyat yoldaşı Bəhmandan telefon zəngi gəldi. Bu zəngdən sonra ana qəlbi fəryad qopardı – dağı-daşı yandıran fəryad. Bircə onu deyə bildi ki, Kamran şəhid olub. Bir qədər sonra Sevdanın fəryadı bütün Kükü kəndinə çatdı.

24 yaşlı Kamran ailənin bir oğlan övladı idi. Haqsızlığa, yalançılığa dözməzdi. Bir dəfə orta məktəbdə oxuyanda müəllim əvvəlki gün dərsə gəlməyənləri ayağa qaldırır. Kamran da qalxır. Müəllim ona deyir ki, sən otur. Sən intizamlı uşaqsan, dərsdən qalmazsan. Kamran oturmur, müəllim, axı mən də gəlməmişdim. Müəllimlə Kamran xeyli sözləşirlər...

Məktəbdə keçirilən idman oyunlarında kapitan olardı. Onların komandası muxtar respublikada I yerə çıxardı.

... Atasının dedikləri:

– Hələ Aprel döyüşlərində milli ordumuza yazılmışdı, lakin onda aparmadılar. “Qarabağ şikəstəsi”ni oxuyanda hədsiz dərəcədə pis olurdu. Deyirdi: “Qarabağ erməni dığalarında, ancaq “Qarabağ şikəstəsi”ni biz oxuyuruq”. İgidlik, qəhrəmanlıq, vətənpərvərlik onun xislətində idi. Həmişə deyirdi ki, Vətəndən 1000 kilometr uzaqda yaşayan Firəngiz xalam gör nə gözəl yazıb:

*Çatar İlahiyə Xanın sədası*
*Şikəstəmiz Xankəndində səslənsə.*
*Qol götürüb süzər şəhid anası*
*Bayrağımız Qarabağda yellənsə!*

İyul döyüşlərində yenə səfərbərliyə müraciət etmişdi. Dedim ki, hər şeyin zamana ehtiyacı var. Zaman hər şeyin dərmanıdır. Cavabı belə oldu: “Qarabağ alınmamış mən ölsəm, nə özümü, nə də ki silah tutan heç bir Azərbaycan vətəndaşını bağışlamaram”. Su torpağa düşərsə, palçıq, şəhid qanı torpağa düşərsə Vətən olar. Qarabağsız Azərbaycan meyvəsiz ağaca bənzər.

“Vətən müharibəsi başlayanda Kamranın hansı rayonda olduğunu bilmirdim”, – deyə əmisi Hüseynbala söhbətə qoşulur. Mənimlə danışanda həmişə deyərdi: “Əmi, torpaqlarımızı ala-ala, erməni əsgərini qıra-qıra gedirik”. Bir dəfə dedim: “Telefonu ver əsgər yoldaşına”. Həmin əsgər:

– Hüseyn əmi, sağ olun ki, Kamran kimi oğul yetişdirmisiniz. Bir “od parçası”dır. Hamıdan yaxşı döyüşür. Bu 5 gündə onlarla erməni əsgəri öldürüb. Çox sayda düşmən texnikasını məhv edib, bir hissəsini qənimət götürüb. Kəndlərimizi, yüksəkliklərimizi alanda heç kəs Kamran qədər sevinmir. Çox qorxmaz, dürüst, vətənpərvər, torpağa bağlı əsgərdir. Var olsun, onu yetirən torpaq, tərbiyə verən ata-ana!

Ağır döyüşlərdən birində Kamrangilin taqımı da ön cəbhədə igidliklə irəliləyirmiş. Düşmənin xeyli canlı qüvvəsi və silah-sursatı məhv edilibmiş. Hamının, xüsusən Kamranın sevincinin həddi-hüdudu yox imiş. Qəflətən Kamranın manqasının yanına bir düşmən minomyotu düşmüş, bir neçə əsgər yaralanmış, bir neçəsi isə şəhid olmuşdur. Şəhidləri və ağır yaralıları düşmən güllələri altında yaralı Kamran səngərə qaytarmışdı. Axırıncı yaralananı səngərimizə gətirərkən Kamran və yaralı əsgər düşmən snayperinə tuş gəlmişdi. Başqa bir əsgərimiz onların köməyinə çatmışdı. Yaralı əsgər Kamrana deyibmiş ki, buradan sağ çıxsaq, təzə doğulan oğlumun adın Kamran qoyacam. Ancaq onların hər ikisi Vətəni bütöv görmədən şəhid olmuşlar.

Sevda xanımın dedikləri:

– Müharibə başlayan bir gündən gecə-gündüzüm yox idi. Fikrim Kamranın yanında idi. Kamran mənim vuran ürəyim, düşünən beynim, görən gözlərimdir. Kamranın oğlu Aslanı, həyat yoldaşı Sənubər xanımı dünyalar qədər istəyirəm. Yaxşı ki, onlar həyatdadırlar. Atası şəhid olandan sonra ondan söhbət düşəndə Aslan hirslənir, stolun üstündə nəyi isə sındırmaq istəyir. Körpə olsa da, hiss edir ki, artıq onun atası yoxdur.

Sənubər xanım söhbətə qarışır:

– Tanış olduğumuz vaxtdan müharibəyə gedən günə qədər mənə güldən ağır bir söz deməmişdi. Az danışar, çox iş görərdi. Çox ailəcanlı, uşaqsevərdi. Hər dəfə işdən gələndə Aslanı bağrına basıb deyərdi ki, indiki nəslimiz Qarabağ kimi bir dərdi sizin ümidinizə qoymayacaq. Xoşbəxt bir ailəmiz vardı...

Vətən torpağı Kamran kimi igidlərin qəhrəmanlığı sayəsində bütövləşdi. 10 noyabrda Qələbə Gününü qeyd etdik. Həmin gün Kamran kimi narahat ruhların rahatlıq tapdığı gün oldu. Prezident cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamı ilə ərazi bütövlüyümüz uğrunda göstərdiyi qəhrəmanlığa görə “İgidliyə görə” medalı ilə təltif olunan Kamran Bəhman oğlu Hüseynov və onun kimi şəhidlik zirvəsinə ucalan şəhidlərimiz xalqımızın qəlbində bir ömürlük xatirə kimi əbədi yaşayacaqdır.

Fikirlərimi xalq şairimiz Məmməd Arazın Vətən haqqında yazdığı qiymətli sözlərlə qurtarıram:

*Vətən mənə oğul desə, nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

Vətən sənə oğul dedi, Kamran. Özü də qəhrəman və igid oğul.

**Yunis QULİYEV**
***Şahbuz rayonundakı A.Quliyev adına Kükü kənd tam orta məktəbinin təqaüdçü müəllimi***

## Yubiley sərgisi təşkil olunub



“Naxçıvan” Universitetində Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yubiley sərgisi təşkil olunub. Tədbiri giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov martın 2-də Rəssamlar Birliyinin yaradılmasının 50 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Naxçıvan rəssamlıq sənətinin uğurlu inkişaf yolu keçdiyini vurğulayan rektor bu sahənin inkişafı üçün yaradılan müasir şəraiti diqqətə çatdırıb. Çıxışda istedadlı gəncləri ətrafında toplayan qurumda universitet tələbələrinin də yer aldığı, hər iki qurum arasında sıx əlaqələrin olduğu vurğulanıb.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva incəsənətimizə, o cümlədən rəssamlığa dövlət tərəfindən yaradılan şərait, göstərilən diqqət və qayğı haqqında danışıb. Bildirib ki, sərgidə 17 rəssamın əsərləri nümayiş etdirilir. Bu kimi tədbirlərin gənclərdə incəsənətə maraq yaratdığını vurğulayan Ülviyyə Həmzəyeva istedadlı gənclərə xüsusi diqqət göstərildiyini, 2020-ci ildə “Gənc rəssamlar” bölməsinin yaradıldığını diqqətə çatdırıb. Qeyd edib ki, bu bölmədə “Naxçıvan” Universitetinin tələbəsi də fəaliyyət göstərir.

Sonra sənətşünas Nizami Alıyev Naxçıvanda rəssamlığın tarixindən danışıb.

Muxtar respublikanın peşəkar rəssamlarının çıxışlarından sonra onlara universitet tərəfindən təşəkkürnamələr təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva elmi fəaliyyəti ilə yanaşı, yaradıcılıq qabiliyyəti ilə də fərqlənən universitetin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylunu birliyə üzv seçilməsi münasibətilə təbrik edib, ona yaradıcılıq uğurları arzulayıb.

Sonda sərgiyə baxış olub.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

Turizm

## Aqroturizmdə ixtisaslaşma muxtar respublika turizminə böyük töhfə verə bilər

***Naxçıvan Muxtar Respublikası yüksək turizm potensialına malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı” isə bu sahədə lazımi fəaliyyətin həyata keçirilməsinə imkan verib. Lakin dünya təcrübəsi göstərir ki, bu gün turizmdə ixtisaslaşmanın əhəmiyyəti gündən-günə artır. Çünki turizmin müxtəlif sahələri üzrə ixtisaslaşma turistlərin düzgün kateqoriyalara bölünməsi və yönləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Belə ixtisaslaşma turist məmnunluğunu təmin etməklə yanaşı, turistləri eyni bölgəyə növbəti dəfə gəlməyə də ruhlandırır.***



Naxçıvanın turizm potensialının istifadə imkanları haqqında danışarkən burada bir çox istiqamətləri qiymətləndirmək mümkündür: dağ-piyada turizmi, dini və müalicəvi turizm, kənd turizmi, xizəkçilik, ekoloji turizm və sair. Bu yazıda bəhs edəcəyimiz aqroturizm isə adından da göründüyü kimi, aqrar və turizm sahələrinin qarşılıqlı əlaqələrindən yararlanaraq ortaya çıxır. Bəzi hallarda “aqroturizm” ilə “ekoloji turizm” ifadələri sinonim kimi qəbul edilsə də, burada fərqli cəhətlər var və bu amil hər iki turizm sahəsinə fərqli yanaşma ortaya qoymağı tələb edir. Məsələnin fərqinə baxmadan ilk olaraq belə bir sual meydana çıxır ki, turistlərin aqrar sahədə marağını təmin etmək nəyə lazımdır? Ümumiyyətlə, bu sahədə beynəlxalq təcrübə necədir? Bu suallara cavab həm də o baxımdan bizə maraqlıdır ki, Naxçıvan Muxtar Respublikası ekoloji sərvətləri ilə bərabər, həm də mühüm kənd təsərrüfatı regionudur. Son illərdə aqrar sahənin inkişafı üçün qəbul edilən mühüm Dövlət proqramlarının əsas məqsədi də regionda bu sahənin inkişafını tam təmin etməkdir. Belə olan tərzdə biz nəyə görə müasir turizm trendlərindən olan aqroturizmi inkişaf etdirməliyik?



Qeyd edək ki, aqroturizmin digərlərdən fərqi ondadır ki, burada turist üçün vacib olan bütün ehtiyatlar kəndlərdə, yəni aqrar sahələrin inkişaf etdirildiyi ərazilərdə axtarılır. Bu turizm sahəsinin inkişaf etdirildiyi ilk zamanlar bəzi ölkələr təbiət qoynunda yerləşən mənzərəli ərazilərdə xüsusi turist mərkəzləri (Şahbuz rayonunun Ağbulaq kəndində olduğu kimi) yaratmağa başladılar. Adətən, kəndlərə yaxın yerlərdə yaradılan belə mərkəzlər daha çox kənd turizminin inkişafını nəzərdə tuturdu. Turist bazarında belə mərkəzləri “VIP-kənd” adlandırırlar. Burada turistlərə tam xidmət paketi (mərkəzdə yataq otağı, qidalanma, kənddə gəzinti, əyləncə proqramları və sair) təqdim edilir. Lakin kənd turizmi ilə yanaşı, bu turizm sahəsinin daxilində inkişaf etdirilən aqroturizmdə isə turistləri daha çox aqrar sahələrdə görülən işlər maraqlandırır. İngilisdilli ölkələrdə – Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və Skandinaviya ölkələrində aqroturistlərin, kiçikhəcmli B&B (“Bed and Breakfast” – “gecə yatmaq və səhər yeməyi”) evlərdə yerləşdirilməsinə üstünlük verilər. Belə yerlər kəndlərdə (kirayə ev üsulu), təbiətin qoynunda olur. Almaniyada aqroturizm kənd yerlərində davamlı inkişaf konsepsiyası prinsipləri çərçivəsində inkişaf edir. Çünki almanlar aqroturizmə sosial-mədəni baxımdan çox məsuliyyətlə yanaşırlar. İtaliyada isə bu turizm növü daha cəlbedicidir. Belə ki, İtaliyada, əsasən, aqroturistlərin fermada və həyətyanı sahələrdə ayrıca otaqda, kənd mehmanxanasında, xüsusi kənd evlərində, tarixi binalarda yerləşdirilməsi təcrübəsinə üstünlük verilər. Qidalanma isə hər bir rayonun xüsusiyyətlərindən asılı olaraq yerli xarakterli olur. Bu ölkədə turistlər yerli fermerlərlə daha çox tanınmış aqrotəsərrüfatlarda çalışmağa üstünlük verilər. Qeyd edək ki, belə aqrotəsərrüfatlar turistlərə yaratdıqları şəraitə görə dövlət tərəfindən qiymətləndirilir. 2 və ya 3 ulduzlu otellərdə olduğu kimi, burada da 2-3 “çiçəkli” aqrotəsərrüfatlara rast gəlmək mümkündür. Belə yerlərdə bir gecə qalmaq həm şərait, həm də qiymət baxımından turistlər üçün məqbul sayılır və bu qiymət regionlar üçün dəyişə bilir.

Belə misalları sadalamaqda məqsədimiz odur ki, aqroturizm konsepsiyasının elə bir vahid nümunəsi yoxdur. Hər bir ölkə bu turizm sahəsini öz daxili sosial, iqtisadi və mədəni şərtləri daxilində turistlərə təqdim edir. Qısa desək, aqroturizm aqrar sahədə fəaliyyətə maraqgöstərən turistlərin marağını təmin edən turizm növüdür. Bir az da detallara varsaq, belə bir mənzərə təsəvvür edək. Bu gün dünyada səyahət imkanları olan insanların böyük bir qismi şəhərlərdə yaşayır. Şəhərlərdə isə insanlar daha çox ofis çərçivəsində (bank işi, təhsil, səhiyyə və sair) çalışdıqlarından onlara təbiət qoynunda, kənd yerlərində zəhmətkeş insanlarla bir yerdə olmaq daha maraqlı və cəlbedici görünür. Ancaq aqroturizmin fərqi ondadır ki, bu turizm növü turistlərə aqrar sahələrə daha yaxın olmağa, onlara yerli təsərrüfatçılarla birgə işləməyə, birgə yeməyə, təsərrüfat həyatına uyğun şəraitdə yatıb-durmağa, bir sözlə, özünü tam bir təsərrüfatçı kimi hiss etməyə şərait yaradır. Elə aqroturizmi digər turizm sahələrindən fərqləndirən də budur.

Bir məsələni də vurğulayaq ki, aqroturizmin inkişafı yerli kənd təsərrüfatı məhsullarının tanıdılması baxımından böyük əhəmiyyət daşıyır. Təsəvvür edək ki, muxtar respublikamızın istənilən bir kəndində 1 həftə yaşayan əcnəbi turist məhsullarımızın dadından, yetişdirilmə və ya tədarük qaydalarından tutmuş mətbəximizdə onlardan istifadəyədək bütün prosesi özü görür, hətta bu prosesdə iştirak edir. Yəni turist burada aqrar vərdişlərlə bərabər, digər milli xüsusiyyətlərimiz haqqında bilgilərə də sahib olur. Sosial şəbəkələrdən istifadənin kütləviliyini də nəzərə alsaq, bütün bu deyilənlərin qiymətini hesablamaq heç də çətin olmaz. Paralel olaraq müqayisə aparaq ki, hansısa fermerin bir məhsulu xarici bazarlarda tanıtması illərlə davam edir, o zaman aqroturizmin bir ölkəyə nə qədər faydası olacağını düşünməmək mümkün deyil.

Sonda bir məqamı da vurğulamaq istərdik. Sual oluna bilər ki, bu gün muxtar respublikamızın təbiəti, tarixi və mədəni abidələri imkan verir ki, regionumuz turizm cənnətinə çevrilsin. Belə olan halda turizmdə müxtəlif sahələrin ixtisaslaşmasına nə ehtiyac var? Həm də söhbət təkcə aqroturizmdən getmir, bunu idman turizmi, dağ turizmi, tarixi, dini, müalicə turizminə də aid etmək olar.

Cavabın əhatəli olduğunu nəzərə alıb belə ümumiləşdirmə apara bilərik. Ötən əsrin 90-cı illərinədək dünya turizmində belə tendensiya mövcud idi ki, turistlər digər ölkələrə gedən kimi ən çox həmin ölkələrdə mövcud olan muzeyləri, teatrları, eləcə də digər tarixi və mədəniyyət abidələrini ziyarət edər, şəhərlərin mərkəzi park və küçələrində, bəzi hallarda təbiət qoynunda fotoşəkillər çəkdirərdilər. Amma dövr dəyişdikcə, turizmin tələbləri də dəyişir. İndi turistlərin getdikləri ölkəni seçmək istəkləri onların şəxsi düşüncə və tələblərindən, ailə, peşə və hobbi maraqlarından irəli gəlir. Dünya turizmi elə bir vəziyyətə gəlib ki, siz meqapolis həyatı yaşamağa məcbur olan bir əcnəbini başqa bir ölkədə yaşadığı bir həftə ərzində hər gün muzey və teatrlara baxmağa məcbur edə bilməzsiniz, o buna ən çox bir gününü sərf edər. Və yaxud incəsənət sahəsinə marağı olan birini günlərlə fermer təsərrüfatlarındakı prosesləri izləməyə razı salmaq mümkün deyil. Təbii ki, istisnalar bütün sahələrdə var. Amma, ümumilikdə, dünya üzrə turist axını məhz bu cür maraqlar üzərindən idarə olunur. Naxçıvanda isə dünya turistlərinin marağına səbəb olacaq çox şey var.

**Səbuhi HƏSƏNOV**

*Yazın gəlişi ilə torpaqdan boylanan quşəppəyinin, nanənin, yarpızın ətri ətrafı bürüyəndə çöllərdə, dağlarda cacıq, mərəçüyüd, salmanca, unnuca, əvəlik, yemlik toplayan qadınlarımıza tez-tez rast gəlirik. Belə gözəl günlərdən birində Sədərək rayonunda Səkinəxatun nənənin qonağı olduq. Qərara gəldik ki, "Şir arxı"nın ətrafında, Vəli dağının ətəyində bitən can dərmanı bitkilərini birlikdə toplayıb evə gətirək, axşama – iftar süfrəsi üçün dadlı yeməklər bişirək. Səhərin saf havasını ciyərlərimizə çəkə-çəkə həmin ərazilərə üz tutduq.*

## Naxçıvan mətbəxi

# Süfrələrimizin bəzəyi – *yaz yeməkləri*



Əvvəlcə onu qeyd edək ki, Tanrının yetirdiyi min bir təbii sərvət, bu torpaqda bitən bitkilər şəfalı və faydalı olmaqla yanaşı, həm də burada hər fəslə, hər mövsümə uyğun zəngin mətbəx mədəniyyətinin əsasını qoyub. Qədim diyarımıza məxsus, yaz fəslində ağız ləzzəti ilə yeyilən mətbəx nümunələrimiz çoxdur. Bunların əsasını isə pencər yeməkləri təşkil edir. Göbələklər də bu yeməklərin içərisində adla deyilir. Sədərək rayonunda, əsasən, qazayağı, mərəçüyüd, salmanca, quşəppəyi və bir neçə növ göbələk yetişir. Elə ki yağış yağıb öz "məharətini göstərdi", şimşək çaxdı, deməli, çöldə, bayırda bitən bitkilərin halallığı verildi. Onları yığıb yeyə bilərik.

...Artıq evdəyik. Xeyli pencər yığa bilmişik. Nənə öncə Arazqırağı ərazidən toplanan mərəçüyüdü təmizləməsi üçün nəvəsinə verib deyir ki, bu pencər o birilərinə nisbətən daha tez köhnəlir. Buna görə də tez bir zamanda yuyub, doğrayıb qaynatmaq lazımdır. Onu bu şəkildə soyudub dondurucuda qış üçün də saxlaya bilərsiniz.

"Mərəçüyüd çox dərdin dərmanıdır, şəkər xəstəliyindən tutmuş qan təzyiqinə qədər bir çox xəstəliklərin müalicəsində istifadə olunur", – deyir Xavər xala. O bu yeməyi hazırlamasına kömək edir və bişirmə qaydasından danışır:

– Mərəçüyüd kiçik hissələrə bölünür, yuyulub təmizlənir və qaynadılır. Beş-on dəqiqə qaynatmaq kifayətdir. Bax barmaqlarım arasında sıxdığım bu zoğların əzilməsi onu göstərir ki, artıq hazırdır. Qışdan qalan qovurmanı kiçik hissələrə bölüb soğanı onun yağında qızartmağa başlayan Xavər xala süzülmüş mərəçüyüdü həmin soğanın içərisinə töküb vam odda azca bişirir. Onu da qeyd edir ki, bu yeməyi tez-tez qarışdırmaq olmaz, onda əzilər. Mərəçüyüdün hazır olduğunu bildirən müsahibim süfrəyə verilənə yaxın üzərinə yumurta vuracağını, belə də bu yeməyin daha dadlı olduğunu deyir.

Sonra qazayağını, salmancanı təmizləyən Xavər xala bu rayonda adla deyilən salmanca aşından danışır. Deyir ki, düyü yuyulduqdan sonra suda qaynadılır, içərisinə duz əlavə edilib süzülür. Əvvəlcədən körpə salmanca doğranır, duzlanıb ovulur, sıxılır. Hazır olduqdan sonra üzərinə yumurta əlavə edib yaxşıca qarışdırırıq. Plovu dəmə qoyacağımız qazana yağ tökür, dağ olanda ocağı zəiflədir, hazırladığımız salmanca ilə yumurtanı qazanın dibinə yayırıq. Bir az bərkiməsini gözləyir və düyünü əlavə edirik. Sonra dəmlənməyə qoyuruq.

"Yazın ən dadlı yeməyi küküdür", – deyən Səkinəxatun nənə onun da hazırlanma qaydasını izah edir:

– Yazın ilk günlərindən torpaqdan boy göstərən ilk pencər yarpızdır. Qız-gəlinlər onu toplayır, yuyub doğrayır, yumurta ilə birlikdə yaxşıca qarışdırır, sonra da əvvəlcədən dağ olan yağın içinə tökür, yaxşıca yayırlar. Ocaq vam olmalıdır ki, dibi yanmasın. Bir üzü bişdikdən sonra ikinci üzü də qızardılır. İlin bu vədəsində qovurma ilə nehrə yağında, ev yumurtası ilə hazırlanan kükünün dadını heç nə əvəz edə bilməz. Kükü təkcə yarpızla deyil, keşniş, şüyüd, ispanaq, soğanla da bişirilir. Amma ən dadlısı yarpız küküsüdür. Kükünü yarpızla bişirmək təkcə Naxçıvan mətbəxinə xasdır. Bütün bu pencərləri bacarıqlı qadınlar toplayıb qurudurlar ki, qışda da istifadə etsinlər. Boşuna deməyiblər ki, yazın, yayın tədarükü qışın ruzisidir.

Nənə onu da deyir ki, bu tərəflərdə "acıqıcı" deyilən pencər göbələk dadı da verir. O, bir az gec bişən pencərdir deyə qaynaması vaxt tələb edir. Kiçik hissələrə böldüyümüz acıqıcını qaynadıb süzdükdən sonra möhkəm sıxır, qovurma ilə qızartdığımız soğana əlavə edirik. Bir az vam odda bişirir, süfrəyə verilməzdən öncə üzərinə yumurta vururuq.

Çöldən topladığımız əvəliyi yarpız, keşniş və şüyüdlə qatıb doğrayan Səkinəxatun nənə qızlara səslənir: – Ay qızım, o məclis qazanını, qatığı da gətirin, yumurtalar ilə səhər tezdən bişirdiyim yumru düyünü də. Nənənin bu sözlərindən başa düşürük ki, yarpız dovğası bişirməyə hazırlıq gedir. O deyir ki, yaz yeməklərinin içində ağartılardan hazırlananların xüsusi yeri var. Dovğa hər fəsildə ləzzətli gəlsə də, yaz pencərləri ilə bişirilənlərin dadını heç nə verə bilməz. Bu elə bir yeməkdir ki, xeyir-şər məclislərində, qonaqlıqda istifadə olunur. Yaz və yay aylarında süfrənizdən əskik etməsəniz, sağlamlığınızın da qeydinə qalmış olarsınız. Ocağın başına gələn qonşu Aybəniz xala iki gün öncədən çalınıb hazırlanmış qatığı qazana boşaldır və bu qədim mətbəx nümunəsinin hazırlanması haqqında danışmağa başlayır. Deyir ki, bəzən dovğaya "qatıqaşı" deyənlər də olur, amma onlar arasında fərq var. Dovğaya yumurta vururuq ki, qatıq pencərlə, düyü ilə birlikdə qaynayanda çürüməsin. Un vuranlar da olur. Bişirdiyimiz dovğanın çürüməyinin qarşısını alan yumurta olsa da, düyünü əvvəlcədən bişirsək, həm dovğanı saatlarla bulamağa ehtiyac olmaz, həm də çürüməz. Amma ki, qatıqaşında qatıq odun üzərinə qoyulub bişirilmir, əvvəlcədən qaynadılmış, düyü və göyərti soyuq halda qatıqla qarışdırılır. Bu yemək növü də bir başqa cür ləzzətli olur. Dovğada əsas şərt qatığın ən azı iki gün öncədən hazırlanmış olmasıdır. Çünki təzə qatıq tez çürüyür. Söhbət edə-edə məclis qazanındakı qatığın üzərinə yumurtanı əlavə edən müsahibim onu yaxşıca qarışdırdıqdan sonra düyünü və pencəri də əlavə edib ocağa qoyur və ocaqda bulanan dovğaya yaz pencərlərinin verdiyi ətir ətrafa yayılmağa başlayır. Xavər xala qaynayıb hazır olan dovğanı çini qazanlara doldurur, qapağını açıq qoyur ki, soyusun. Səkinəxatun nənə nəvəsinə səslənir: "Ay bala, soyuyana qədər onu arada qarışdır ki, su kəsməsin". Müsahibim onu da bildirir ki, dovğanı şüşə balonlara doldurub qışa da saxlamaq olur. Deyir ki, dovğaya süd də qatıb içmək olar. Onda onun dadı daha şirin olur. Nənə dovğa soyuduqdan sonra duzunu qatır. Qonşuları deyir ki, nənənin əli duzludur, onun əl vurduğu bütün yeməklər dadlı olur.

Səkinəxatun nənə qatıqaşı hazırlanması haqqında az öncə başladığımız söhbətə davam edir: – Çöldən salmanca, unnuca, yarpız, pərpətöyün, qaragöz, sarmaşıq, əvəlik toplayır, yaxşıca yuyur, doğrayırıq. Əvvəlcədən qaynamağa qoyduğumuz düyünün üzərinə tökürük. Əgər düyünün suyu azdırsa, üzərinə azca su əlavə edir qaynadırıq. Bir az bişəndən sonra soyumağa qoyuruq. Düyü ilə pencər birlikdə qaynayanda dadı bir-birinə çıxır. Qatığı yaxşıca qarışdırır, həmin pencər və düyünü üzərinə əlavə edirik. Bu yemək növü lap qədimdir. İkinci Dünya müharibəsinin aclıq və qıtlıq illərində olduğu kimi, 90-cı illərdə, çətin günlərimizdə qatıqaşını hazırlayıb içinə də çörək qatıb balalarımızı doyurar, beləcə, keçinərdik. İndi, şükür Allaha, hər cür şəraitimiz var, bolluqdur. Mövsümündə bu bitkilərdən hazırlanan yeməklər sağlamlığa yaxşı təsir edir. Şəkəri, təzyiqi, normada saxlayır, bundan əlavə, orqanizmi cavanlaşdırır, bədəni qüvvətləndirir. Tanrı dövlətimizi var eləsin. Sabitlik, əmin-amanlıq nəyə desən, dəyər. Düşmənin beş metrliyində olmağımıza baxmayaraq, bu gün hamımız öz evimizdə əmin-arxayın, rahat yaşayırıq. Yurdumuzda bitən halal nemətlərdən bişirdiyimiz yeməklərin həm dadı damaqda qalır, həm də diyarımızın bərəkətli torpaqlarında bitən, can dərmanı olan saf havası, büllur bulaqları ilə qidalanan, mineral və vitaminlərlə zəngin bu əvəzsiz nemətlərlə qidalanmaqla immunitetimizi möhkəmləndirir, sağlamlığımızın qayğısına qalmış oluruq.

Səhərin erkən çağından bu qədim elin qonağı olduq, yurdumuzun qonaqpərvər insanları ilə bərabər, müxtəlif pencərlərdən topladıq, həm də onların bişirilmə qaydasını öyrəndik. Növbəti dəfə yolum bazara düşəndə bu deyilənləri xatırlayıb cürbəcür dağ pencərləri satılan piştaxtaya yaxınlaşdım. Bazardakı yaz məhsullarını – bolluğu görərkən öz-özümə fikirləşdim: "Ana təbiət bu yurddan heç bir varını əsirgəməyib. Əslində, Uca Yaradan bu diyarın insanlarına ruzisini özündən əvvəl verib. Bu yurda elə səxavətlə min bir naz-nemət bəxş edib ki, bunların qədrini bilib, yığıb istifadə etməklə yanaşı, həm də artıb-çoxalması qayğısına qalsaq, sağlamlığımız naminə süfrələrimizdən əskik etməsək, bərəkətimiz də tükənməz, xəstəliyin də nə olduğunu bilmərik.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Qadınlar üçün növbəti toxuculuq təlimi



Qədim toxuculuq sənətinin inkişaf etdirilməsi, qadınların bu sahəyə marağının artırılması, eyni zamanda onların sosial vəziyyətinin yaxşılaşdırılmasına kömək etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Şərur Rayon İcra Hakimiyyəti tərəfindən rayonda yaşayan qadınlar arasında toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilib. Təlimdə 6 aztəminatlı ailənin üzvü, 12 sağlamlıq imkanları məhdud qadın və 3 Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək rəhbərləri olmaqla, cəmi 21 nəfər iştirak edib.

Tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşı Sürəyya Başirova, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Tarverdi Məmmədov çıxış ediblər. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar hazırda müvafiq işlər həyata keçirilir. Həmçinin qadınlar, xüsusən də evdar və sosial qayğıya ehtiyacı olanlar arasında xalq tətbiqi-sənəti nümunələrinin, milli dəyərlərin yaşadılması istiqamətində də sosial layihələr həyata keçirilir. Bu ilin ötən dövrü ərzində toxuculuq ilə bağlı Sədərək və Culfa rayonlarında təlimlər təşkil olunub.

Sonda təlimi həyata keçirəcək toxucu qadın Gülsüm Kəngərli milli-mənəvi dəyərlərin yaşadılmasında və inkişafında dövlətimiz tərəfindən hər zaman dəstək göstərildiyini bildirib, əyani vəsaitlərdən istifadə etməklə təlimə başlayıb. Təlim iştirakçılar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Atletika idman növləri üzrə birincilik keçirilmişdir




Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan Muxtar Respublikası Atletika Federasiyası və Naxçıvan Dövlət Tibb Kollecinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək!" devizi altında Naxçıvan Dövlət Tibb Kollecinin tələbələri arasında atletika idman növləri üzrə birincilik keçirilib.

Birinciliyin keçirilməsində məqsəd muxtar respublikada yeniyetmə və gəncləri atletika idman növünə cəlb etmək, bu idman növünü inkişaf etdirmək və kütləviliyinə nail olmaq, həmçinin Naxçıvan Dövlət Tibb Kollecinin tələbələrindən ibarət atletika idman növü üzrə yığma komandanın tərkibini müəyyənləşdirməkdən ibarət olub.

Yarışın şərtlərinə görə hər komandada 5 oğlan, 5 qız, 1 hakim və 1 məşqçi iştirak edib və hər bir idmançı atletika idmanının 1 növü üzrə iştirak edib. Beləliklə, birincilikdə oğlan və qız komandaları atletikanın qaçış (100 metr, 200 metr, 400 metr), nizə və yadro itələmə növləri üzrə yarışıblar. Beynəlxalq Atletika qaydalarına uyğun olaraq keçirilən yarışda oğlan və qızlar arasında I yeri tutan idmançılar təşkilatçıların diplomları ilə mükafatlandırılıblar.

**Ülviyyə HACIYEVA**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Mülkiyyətimdə torpaq sahəsi var. Həmin torpaq sahəsini icarəyə vermək istəyirəm. Bunun üçün hansı müqaviləni bağlamaq lazımdır?*

**Cavab:** Siz mülkiyyətçi kimi torpaq sahənizi icarəyə verə bilərsiniz. Bunun üçün siz icarəçi (yəni torpaq sahəsini icarəyə götürən) ilə torpaq icarəsi müqaviləsi bağlamalısınız. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 56-cı maddəsinin 9-cu hissəsinə görə, xüsusi mülkiyyətdə olan torpaq sahələrinin özgəninkiləşdirilməsi, habelə istifadəyə və ya icarəyə verilməsi tərəflər arasında qanunvericilikdə müəyyən edilmiş qaydada bağlanılan və notarial qaydada təsdiq olunan müvafiq müqavilə əsasında həyata keçirilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 144.1-ci maddəsinə görə, daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Bundan əlavə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə görə, daşınmaz əmlak üzərində müddəti on bir aydan çox olan icarə və ya istifadə hüququ dövlət qeydiyyatına alınır. İcarə və ya istifadə hüququnun dövlət qeydiyyatına alınması barədə ərizəni daşınmaz əmlakın icarə (istifadə) müqaviləsi üzrə tərəflərdən biri verə bilər.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 355